26 avqust 2021-ci il, cümə axşamı XALQ QƏZETİ

**26 avqust – Beynəlxalq Azərbaycan Muğamı Günüdür**

# Muğam bəşəri musiqiyə çevrilmişdir

*Muğam həm ədəbiyyatdır, həm musiqidir, həm də Azərbaycan dilinin saflığını qoruyan sənətdir.*

*İlham ƏLİYEV*
*Azərbaycan Pespublikasının Prezidenti*

***Muğamın yaşı insanlığın tarixi qədər qədimdir. Muğam yarandığı zamanlardan başlayaraq, əsrlər boyu formalaşıb, mükəmməlləşmişdir. Bir sıra Şərq xalqlarının qədim irsi olan bu sənət tarixən enişli-yoxuşlu yollardan keçsə də, xalqımızın həyatına daxil olmuş, nəsildən-nəslə ötürülərək indiki vəziyyətə gəlib çatmışdır. Müstəqil Azərbaycanda isə yeni inkişaf mərhələsinə qədəm qoyan milli muğam ifaçılığı dünyanı fəth edir.***

Ağdam Muğam Mərkəzinin açılış mərasimində Prezident İlham Əliyevin dediyi kimi muğam bizim milli sənətimizdir, milli sərvətimizdir. Bizim mənəvi dəyərlərimizin, Azərbaycan dəyərlərinin inkişafı, qorunması üçün ədəbiyyatımızın, musiqimizin çox böyük əhəmiyyəti var.

Muğam sənətimizin təbliğində Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli silsilə tədbirlər müstəsna rol oynayır. Bu fəaliyyətin nəticəsidir ki, son illər muğam ifaçılığı, sözün əsl mənasında, intibah dövrünü yaşayır. UNESCO-nun qərarı ilə dünya mədəniyyətinin qeyri-maddi irsinin bəşəri əhəmiyyətə malik sərvətləri sırasına daxil edilməsi muğamın, eləcə də tar ifaçılığı sənətinin təkcə xalqımızın deyil, bütün bəşəriyyətin misilsiz mədəni sərvətinin ayrılmaz hissəsi kimi qiymətləndirildiyini göstərir.

Təsadüfi deyil ki, hər il avqustun 26-sı Beynəlxalq Azərbaycan Muğamı Günü və İpək yolu üzərində yerləşən ölkələrin musiqisi günü kimi qeyd olunur. 2010-cu ildə Kanadanın Niaqara şəhərinin meriyası və ənənəvi olaraq hər il keçirilən Beynəlxalq Niaqara musiqi festivalının rəhbərliyi tərəfindən qəbul olunmuş bu qərar xalqımızın milli sərvəti olan muğamın bəşəri musiqiyə çevrildiyini bir daha təsdiq edir.

Bu, muğamsevərlər, ömrünü bu sənətin yaşamasına və təbliğinə həsr edənlər üçün əziz bayramdır.

Ölkəmizdə beynəlxalq muğam festivallarının, müsabiqələrin, muğam konsertlərinin, simpoziumların təşkili, “Qarabağ xanəndələri” albomunun buraxılması, “Muğam” jurnalının, “Muğam ensiklopediyası”nın nəşri, müasir texnologiyalara əsaslanan 8 diskdən ibarət “Azərbaycan muğamı” multimedia toplusunun hazırlanması Heydər Əliyev Fondunun, Azərbaycan Mədəniyyət Fondunun bu sahəyə göstərdiyi diqqətin bariz nümunələridir.

Azərbaycan muğamına yeni həyat bəxş edən Mehriban xanım Əliyeva bu bənzərsiz sənət inciləri ilə bağlı fikirlərini belə ifadə edir: “Biz azərbaycanlılar – hamımız, haqlı olaraq, öz doğma muğamlarımızla fəxr edirik. Hər bir azərbaycanlı üçün muğam xüsusi əhəmiyyət daşıyır. Qərblə Şərq arasında, Böyük İpək Yolu üstündə yerləşən Azərbaycan sivilizasiyaların qovuşduğu bir məkanda əsrlər boyu öz mədəniyyətini formalaşdırmışdır. Bəzi dövrlərdə biz müxtəlif imperiyaların daxilində yaşasaq da, dinimiz, milli dəyərlərimiz, dilimiz, mədəniyyətimiz bizi bir xalq kimi, millət kimi qoruyub saxlamışdır. Azərbaycanın zəngin mədəniyyətinin və tarixinin ən gözəl incilərindən biri olan muğam, muğam sənəti bizim milli sərvətimizdir. Muğam Azərbaycan xalqına xas olan ən gözəl xüsusiyyətlərin daşıyıcısıdır. Torpağa, köklərə




bağlılıq, vətənpərvərlik, milli ləyaqət hissi, qonaqpərvərlik, xeyirxahlıq, mərhəmət, emosional zənginlik – bütün bu hisslər muğam fəlsəfəsinin əsasındadır. Odur ki, desəm, muğam gözəlliyin və məhəbbətin rəmzidir – səhv etmərəm”.

Bəstəkarlarımız üçün ilham mənbəyi olan muğam həm də milli musiqi mədəniyyətimizin uğurlarının əsasında dayanır. Üzeyir Hacıbəyli “Leyli və Məcnun” operasını muğam üzərində yazıb, Fikrət Əmirov “Şur” və “Kürd-Ovşarı” simfonik muğamları ilə dünya musiqisində simfonik muğam janrının əsasını qoyub. Niyazi, Qara Qarayev, Soltan Hacıbəyov, Cövdət Hacıyev, Aqşin Əlizadə, Arif Məlikov, Firəngiz Əlizadə və digər görkəmli bəstəkarlarımızın yaradıcılığında muğamdan irəli gələn bədii prinsiplər ən müasir kompozisiya texnikası ilə qovuşur. Vaqif Mustafazadə isə bu janrı caz sənəti ilə qovuşdurub.

Şuşada – “Şərqin konservatoriyası”nda formalaşmış Qarabağ muğam məktəbi xüsusi maraq doğurur. Şuşa mühitində gözəl səslərin və istedadların dəyərini yaxşı bilirdilər və təbiət öz gözəlliyi, təmiz havası ilə bu istedadlara həyat bəxş etmişdir. Seyid Şuşinski, Zülfi Adıgözəlov, Xan Şuşinski, Ağabala Abdullayev, Mütəllim Mütəllimov, Əbülfət Əliyev, İslam Rzayev, Arif Babayev kimi ustadlar Qarabağ muğam məktəbinin parlaq simalarıdır. Qarabağın muğam ifaçılarının əsas vizit kartı “Qarabağ şikəstəsi”dir.

Tarixən Şuşada xarrat Qulu Məhəmməd oğlunun, Mir Möhsün Nəvvabın, Şamaxıda Mahmud ağanın, Bakıda Məşədi Məlik Mənsurovun məclisləri, bu məkanlardan çıxan böyük sənətkarlar Azərbaycan muğamının inkişafına əvəzsiz töhfələr veriblər. Hələ 1922-ci ildə Bakıda açılmış ilk Avropa tipli musiqi məktəbinin dərs proqramına muğamın tədrisi daxil edilib.



Muğam sənəti rəssamlarımız, heykəltəraşlarımız, şairlərimiz, rejissorlarımız üçün bu gün də ilham mənbəyi olaraq qalır. Dövlətimizin mədəniyyətimizə, o cümlədən muğam sənətinə, onu yaşadanlara böyük diqqət və qayğısı xanəndələrimizi yeni-yeni yaradıcılıq axtarışlarına həvəsləndirir. Muğam dənizlər, okeanlar üzərindən keçərək, dağlar aşaraq xalqları birləşdirir.

Muğam irsimiz dövlət səviyyəsində qorunur. Muğam ruhumuzun qidasıdır. Onu təbliğ etmək, beynəlxalq miqyasda tanıtdırmaq bizim mənəvi borcumuzdur.

**M.MÜKƏRRƏMOĞLU,**
**“Xalq qəzeti”**